# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# Q Ə R A R

№ 12/1

Bakı şəhəri 16 iyul 2020-ci il

"AMEA-nın Məruzələri" jurnalının
Redaksiya heyəti haqqında

1945-ci ildən nəşr olunan "AMEA-nın Məruzələri" jurnalının fəaliyyətinin müasir dövrün elmi-kütləvi nəşr tələblərinə uyğun təkmilləşdirilməsi məqsədilə jurnalın Redaksiya heyətinin tərkibində dəyişiklik edilməsi zərurəti yaranmışdır.

Bunu nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətı **QƏRARA ALIR:**

1. "AMEA-nın Məruzələri" jurnalının Redaksiya heyətinin tərkibi təsdiq edilsin (əlavə olunur).
2. Jurnal ildə dörd dəfə Azərbaycan, rus və ingilis dillərində nəşr olunsun.
3. Jurnalda elmi yenilikləri olan mühüm elmi tədqiqatlar və onların nəticələri haqqında məqalələrin çap olunması təmin edilsin.
4. Qərarın icrasına nəzarət AMEA-nın birinci vitse-prezidenti akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Ramiz Mehdiyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ APARAT

AMEA-nın akademik-katibi AMEA-nın müxbir üzvü Əminağa Sadıqov